

# Bu da şüşədən buta!

*Afaq Hüseynova*

Bu ilin mayında Londonda açılmış «Glass Buta & Spacious Dreams» ekspozisiyasının müəllifi Ülvi Pepinova yaradıcılığa vur-tut beş il əvvəl başladığını söylədi. Əslində təvazökarlıqla deyilən bu fikir bizi lap uzaqlara, ötən əsrin ilk illərinə apardı... Keçmişə «səyahət»imiz səbəbsiz deyildi. Axı, Ülvi görkəmli maarifçi ziyalımız, «Molla Nəsrəddin» jurnalının yaradıcılarından biri olan Ömər Faiq Nemanzadənin nəticəsidir.





Mən incəsənətin pərəstişkarı idim, amma nə vaxtsa yaradıcılıqla məşğul olacağım ağlıma da gəlməzdi. Həyatım bir anda dəyişdi. Ürəyimdən keçənləri şüşə üzərinə köçürməyə can atırdım, iş alınanda uşaq kimi sevinirdim. Qısa müddətdən sonra mənzilimdə onların əlindən tərpənməyə yer qalmadı: bu zərif şüşələr evimizi əməlli-başlı «zəbt» etmişdi. Beləliklə, mən daha cəsarətli addım atmağa qərar verdim: tanış rəssamların məsləhəti ilə sərgilərdə iştirak etməyə başladım. İşlərimi Londonun müxtəlif ekspozisiyalarında və Moskvada – Rəssamların Mərkəzi Evində nümayiş etdirdim.

Deməli, yaradıcılıq ehtirası onun canında, qanındadır. Təhsilindən, həyat tərzindən asılı olmayaraq, insanın varlığını müəyyən edən genlər əvvəl-axır öz sözünü deyir... Beş il öncə, adi günlərin birində Ülvi balaca qızı ilə Londonun təbiət tarixi muzeylərindən birinə baş çəkir. Dinozavr və mamontların yanından keçib minerallar zalına adlayır. Səbəbini özü də anlamadığı qəribə bir hiss onu bürüyür, müxtəlif ölçülü daşların enerjisini duyur... Bu daşların təbii gözəlliyi, əlvan rəngləri, sehri və cazibəsi Ülvini mineralların bütün işığını əks etdirən şüşə üzərində naxış çəkməyə həvəsləndirir. Bir neçə ildən sonra sərgisi açılır və iştirakçılar bu naxışlardan təsirləndiklərini dilə gətirir, ürək sözlərini onunla bölüşürlər...

– Mən incəsənətin pərəstişkarı idim, amma nə vaxtsa yaradıcılıqla məşğul olacağım ağlıma da gəlməzdi. Həyatım bir anda dəyişdi. Ürəyimdən keçənləri şüşə üzərinə köçürməyə can atırdım, iş alınanda uşaq kimi sevinirdim. Qısa müddətdən sonra mənzilimdə onların əlindən tərpənməyə yer qalmadı: bu zərif şüşələr evimizi əməlli-başlı «zəbt» etmişdi. Beləliklə, mən daha cəsarətli addım atmağa qərar verdim: tanış rəssamların məsləhəti ilə sərgilərdə iştirak etməyə başladım. İşlərimi Londonun müxtəlif ekspozisiyalarında və Moskvada – Rəssamların Mərkəzi Evində nümayiş etdirdim.

«Glass Buta & Spacious Dreams» adlı London sərgisi Ülvi Pepinovanın ilk fərdi layihəsi oldu. Sərginin əsas mövzusu şüşə üzərində buta formalı silsilə naxışlar idi. Buta – Ülvi üçün Vətənin simvolu, qədimiliklə müasirliyin zərif ahəngi demək idi. Şüşə üzərinə həkk olunan bu ornament tamaşaçıların dərhal diqqətini cəlb etdi Buta kolleksiyası ilə yanaşı, onun yağlı boyalarla çəkilmiş yeni eksperiment əsərləri də sərgidə nümayiş olundu. Parlaq rənglərə – zümrüd, füruz sapfirə üstünlük verdiyi aydın görünür. Rəssam bu şux rənglərlə Azərbaycan təbiətinin əlvanlığın ifadə etməyə çalışır. Əslində Ülvinin bütün yaradıcılığında üslub ümumiləşdirilməsinə, sinte və eklektikaya meyllilik hiss olunur. Özü də bu təkcə sənət üslubu yox, həm də həyat tərzidir. Ülvi Pepinova Bakıda dünyaya gəlib, Moskvada təhsil alıb və artıq uzun illərdir ki, Londonda yaşayır. Yay tətilini isə həmişə Vətəndə keçirir. B adətinə indi də xilaf çıxmayan Ülvi havalar isinə kimi Bakıya tələsir. Axı, doğma ocağın yeri bir başqadır, buradakı mehribançılıq, səmimiyyət, ılıq xatirələr adamı elə hey özünə çəkir, hətta ad samovar çayı da öz ətri ilə səni ovsunlayır.

# AQ

"AZƏRBAYCAN QADINI" JURNALI • YAY • 2013




VYANADA AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİ • DOSTLUĞA DAHA BİR TÖHFƏ • AZƏRBAYCANLA YUNESKO ARASINDA TARİXİ ƏMƏKDAŞLIQ • KANNDA SƏNƏT ATƏŞFƏŞANLIĞI • VENESİYA BİENNALESİNDƏ AZƏRBAYCAN PAVİLYONU • AMOR FASHION DAY • İDMAN, SƏN ALƏMSƏN • BAKIYA SƏFƏR EDƏN SƏYYAR İNCƏSƏNƏT • AZƏRBAYCAN QADINLARININ IV QURULTAYI • ŞƏRQ GÜNƏŞİNİN NURU • 140 YAŞLI AZƏRBAYCAN TEATRI VƏ SƏKKİZ GƏNC SİMA • BU DA SÜSƏDƏN BUTA! • SƏNƏTƏ ÖZ SƏNGİNİ QATAN • ÜLVİYYƏ ŞABANOVA: KƏPƏNƏK UÇUŞU • ELÇİN ƏFƏNDİYEV: SÖZÜN NÖVBƏTİ FƏSLİ • KÜLƏKLƏR MƏKANINA SƏYAHƏT • MƏRYƏMİN KÖNÜL POLTUA ... NDA • KLASSİK TOXUMA SƏNƏTİNƏ ZƏRİF ƏLAVƏLƏR • DÜNYANI GÖZƏLLƏŞDİRMƏK İSTƏYİ • LİDER XANIMLAR

Mən incəsənətin pərəstişkarı idim, amma nə vaxtsa yaradıcılıqla məşğul olacağım ağlıma da gəlməzdi. Həyatım bir anda dəyişdi. Ürəyimdən keçənləri şüşə üzərinə köçürməyə can atırdım, iş alınanda uşaq kimi sevinirdim. Qısa müddətdən sonra mənzilimdə onların əlindən tərpənməyə yer qalmadı: bu zərif şüşələr evimizi əməlli-başlı «zəbt» etmişdi. Beləliklə, mən daha cəsarətli addım atmağa qərar verdim: tanış rəssamların məsləhəti ilə sərgilərdə iştirak etməyə başladım. İşlərimi Londonun müxtəlif ekspozisiyalarında və Moskvada – Rəssamların Mərkəzi Evində nümayiş etdirdim.

Deməli, yaradıcılıq ehtirası onun canında, qanındadır. Təhsilindən, həyat tərzindən asılı olmayaraq, insanın varlığını müəyyən edən genlər əvvəl-axır öz sözünü deyir... Beş il öncə, adi günlərin birində Ülvi balaca qızı ilə Londonun təbiət tarixi muzeylərindən birinə baş çəkir. Dinozavr və mamontların yanından keçib minerallar zalına adlayır. Səbəbini özü də anlamadığı qəribə bir hiss onu bürüyür, müxtəlif ölçülü daşların enerjisini duyur... Bu daşların təbii gözəlliyi, əlvan rəngləri, sehri və cazibəsi Ülvini mineralların bütün işığını əks etdirən şüşə üzərində naxış çəkməyə həvəsləndirir. Bir neçə ildən sonra sərgisi açılır və iştirakçılar bu naxışlardan təsirləndiklərini dilə gətirir, ürək sözlərini onunla bölüşürlər...

– Mən incəsənətin pərəstişkarı idim, amma nə vaxtsa yaradıcılıqla məşğul olacağım ağlıma da gəlməzdi. Həyatım bir anda dəyişdi. Ürəyimdən keçənləri şüşə üzərinə köçürməyə can atırdım, iş alınanda uşaq kimi sevinirdim. Qısa müddətdən sonra mənzilimdə onların əlindən tərpənməyə yer qalmadı: bu zərif şüşələr evimizi əməlli-başlı «zəbt» etmişdi. Beləliklə, mən daha cəsarətli addım atmağa qərar verdim: tanış rəssamların məsləhəti ilə sərgilərdə iştirak etməyə başladım. İşlərimi Londonun müxtəlif ekspozisiyalarında və Moskvada – Rəssamların Mərkəzi Evində nümayiş etdirdim.

«Glass Buta & Spacious Dreams» adlı London sərgisi Ülvi Pepinovanın ilk fərdi layihəsi oldu. Sərginin əsas mövzusu şüşə üzərində buta formalı silsilə naxışlar idi. Buta – Ülvi üçün Vətənin simvolu, qədimiliklə müasirliyin zərif ahəngi demək idi. Şüşə üzərinə həkk olunan bu ornament tamaşaçıların dərhal diqqətini cəlb etdi. Buta kolleksiyası ilə yanaşı, onun yağlı boyalarla çəkilmiş yeni eksperiment əsərləri də sərgidə nümayiş olundu. Parlaq rənglərə – zümrüd, firuzə, sapfirə üstünlük verdiyi aydın görünür. Rəssam bu şux rənglərlə Azərbaycan təbiətinin əlvanlığını ifadə etməyə çalışır. Əslində Ülvinin bütün yaradıcılığında üslub ümumiləşdirilməsinə, sintezə və eklektikaya meyllilik hiss olunur. Özü də bu təkcə sənət üslubu yox, həm də həyat tərzidir.

Ülvi Pepinova Bakıda dünyaya gəlib, Moskvada təhsil alıb və artıq uzun illərdir ki, Londonda yaşayır. Yay tətilini isə həmişə Vətəndə keçirir. Bu adətinə indi də xilaf çıxmayan Ülvi havalar isinən kimi Bakıya tələsir. Axı, doğma ocağın yeri bir başqadır, buradakı mehribançılıq, səmimiyyət, ılıq xatirələr adamı elə hey özünə çəkir, hətta adi samovar çayı da öz ətri ilə səni ovsunlayır.